# “Nə mütləq liberalizm, nə də mütləq kollektivizm”

## Azərbaycan İstiqlal Bəyannaməsi və Rəsulzadənin izahları



Dilqəm ƏHMƏD

***1918-ci il mayın 28-də elan edilən Azərbaycan İstiqlal Bəyannaməsinin mətni XIX əsrin ortalarından etibarən başlayan Azərbaycan Milli Hərəkatının yekun nəticəsi idi. Altı maddədən ibarət olan bu bəyannamədə ən mühüm azadlıqlar və respublikaçılıq düşüncəsinin əsasları təmin olunub. Bəyannamənin dördüncü maddəsi xüsusilə əhəmiyyətlidir: Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.***

Vətəndaşlıq və azlıqlar məsələsi – 7 dekabr 1918-ci ildə Azərbaycan Parlamentindəki açılış nitqində Rəsulzadə məclisin ölkədə yaşayan bütün etnik qrupları təmsil etdiyini bildirib: “Burada Azərbaycanda bulunan bütün millətlərin, təbəqələrin və müxtəlif cərəyanların nümayəndələri olduğundan, bu Məclis vətənimizi tamamilə təmsil edə bilər”.

Buna görədir ki, Rəsulzadə çıxışının davamında Azərbaycanın Rusiya istilasından qurtulduğunu, rus milləti ilə hər hansı problemi olmadığını qeyd edib: “Bizim Rusiya camaatına qarşı heç ədavət və nifrətimiz yoxdur. Bizar olduğumuz Rusiya; çarizm Rusiyası, Rusiya istibdadıdır. Rusiyaya nifrətimiz, Rusiya istibdadı altında inləyən Rusiya camaatına nifrət demək deyildir. Bizcə mənfur olan Rusiya, millətləri əzən v? hüquqlarını verməyən rəsmi Rusiyadır. Bir millət müstəqil və hürr olmalı, hürr olduqdan sonra digər millətlərlə ürək istədiyi kimi ittifaq bağlamalıdır”.

1918-ci il dekabrın 10-da Azərbaycan Cümhuriyyəti Parlamentinin ikinci iclasında Məhəmmədəmin Rəsulzadə ölkədəki vətəndaşlıq və azlıqlarla bağlı məsələyə toxunub. O, ölkədə yaşayan digər xalqların da bütün hüquqlara sahib olacağını bildirib: “Məhkumluq acısını dadmış olan Azərbaycan türkü məhkum millət yaratmaz. Azərbaycan Cümhuriyyəti övladını ögey-doğmaya ayırmaz: erməni, rus, yəhudi, gürcü, nemsə, polyak və sair azlıqda olan millətlər Azərbaycan vətəndaşı qalmaqla bərabər, milli-mədəni muxtariyyətə malik olub kəndi ümuri-məzhəbiyyə, milliyyə və mədəniyyələrini özləri idarə etməlidirlər”.

Müsavat Partiyasının rəhbəri kimliyi ilə Rəsulzadə ölkədə yaşayan etniklərin təmsilçiləri ilə də görüşüb. 1919-cu ildə yəhudi qrupların da yaşadığı Azərbaycanın Quba şəhərinə səfər edən Rəsulzadə burada onların dini lideri ilə görüşüb, onlara yeni qurulan dövlətdə müsəlmanlar kimi eyni hüquqa malik olduğunu söyləyib: “Müsəlman və türk cümhuriyyəti olan dövlətimizdə bütün millətlərlə bərabər siz yəhudilər də gərək şəxs və gərək millət etibarilə əmin və amanda olub, rahət yaşayacağınızdan əmin ola bilərsiniz!”.

***Sinfi, cinsi, məzhəbi bərabərlik məsələsi – Rəsulzadə 1918-ci ilin noyabrında “Bütün Azərbaycan əhalisinə!” adlı müraciətində məzhəbi və etnik fərq olmadan bütün vətəndaşların eynihüquqlu olduğunu söyləyib: “Bütün Azərbaycan vətəndaşları millət və məzhəb fərqi olmadan bir vətənin övladlarıdırlar. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və bərabərlikdə öz səadətlərini hazırlamaq üçün onlar bir-birinə yardım etməlidirlər”.***

Bu müraciətdən qısa bir müddət sonra açılan Azərbaycan parlamentində azərbaycanlılarla yanaşı ermənilər, ruslar, polyaklar, yəhudilər, almanlar da təmsil olunublar. Rəsulzadənin sədri olduğu Müsavat Partiyası parlamentdə digər azadlıqların da həyata keçməsində önəmli rol oynayıb. 1919-cu il iyulun 21-də Azərbaycan Parlamenti “Azərbaycan Cümhuriyyətinin Müəssislər Məclisinə seçkilər haqqında” Əsasnaməni təsdiq edib. Əsasnaməyə görə, cinsindən, irqindən, milliyyətindən, dini mənsubiyyətindən asılı olmayaraq, 20 yaşına çatmış və səsvermə hüququ olan bütün Azərbaycan vətəndaşlarının səsvermə hüququ vardı. Bu Əsasnamə o dövrdə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində ən demokratik seçki hüququ müəyyən edən tarixi sənəddi. Göründüyü kimi, burada qadınlara da səsvermə hüququ nəzərdə tutulub.

Rəsulzadəyə görə klassik demokratiya ümdələri müstəqil Azərbaycan Cümhuriyyətinin İstiqlal Bəyannaməsində yer alıb: “Hakimiyyətin xüsusilə xalqa aid olduğu, hökumət şəklinin mütləq cümhuriyyət olacağı, vətəndaşlar arasında müsavat əsasına riayət edilərək zümrə və sinif təhəkkümünə meydan verilməyəcəyi, fikri, dini və fəlsəfi həyatın tam hürriyyətə malik olacağı kimi böyük ideyalar burada açıq və qətiyyətlə qeyd olunmuşdur”.

Rəsulzadəyə görə, Azərbaycan Cümhuriyyətinin təşəkkülü Azərbaycan xalqının ümmət dövründən millət dövrünə keçərək çatdığı qəti bir mərhələdir. 28 may 1918-ci il tarixli bəyannaməni nəşr etməklə Azərbaycan Milli Şurası sözün siyasi mənası ilə bir Azərbaycan millətinin varlığını təsbit edib. Azərbaycan kəlməsi coğrafi, etnoqrafik və linqivistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir mövcudluq olub. Rəsulzadə qurulan dövlətin söykəndiyi əsas prinsipləri bu şəkildə açıqlayıb:“Azərbaycan Cümhuriyyəti bir dövlət olaraq varlığını tapmasında əsrimizə hakim olan milliyyət prinsipləri və hürriyyət ideyalarına borclu olmaqla bərabər öz tarixi ilə sıx bağlıdır. Azərbaycan millətinin istiqlalını elana varan hərəkat hər şeydən əvvəl bir demokratiya və hürriyyət hərəkatıdır. Azərbaycanda milliyyətçilik demokratik bir mahiyyət alır”.

Rəsulzadəyə görə demokratik bir rejimin həqiqi surətdə qurulub yerləşə bilməsi üçün xalqın şəxsən və yaxın şəkildə idari işlərdə feilən təmasa girməsi vacibdir. Onun fikrincə, Milli Şuranın mövcudluğu, Azərbaycan parlamentində tətbiq olunan vəziyyət parlamentarizm üsulunun tamamilə gerçəkləşdiyi şəklində idi. Azərbaycan parlamentindəki vəziyyəti Rəsulzadə bu şəkildə xülasə edib:“Azərbaycan Parlamentində sinif, silk, milliyyət və məzhəb fərqi qoymadan əhalinin hər qismi təmsil edilmişdi”.

> ***“Azərbaycan xırda mülkiyyət məmləkətidir. Ona görə də bura xalqı mülkiyyət əsasını inkar edən ictimai cərəyanlar arxasından gedə bilməz. İslam millətlərini bir camaat və ümmət təsəvvür edən vəmilliyyəti inkar edən islam birliyi cərəyanı da burada özünə yer tapa bilməz, çünki bu fikir Azərbaycanüçün çox köhnəlmiş bir fikirdir. Burada nə imperialist bir cərəyan var, nə də bir din təəssübü ki... Burada, bu iqtisadiyyatı yeni inkişaf edən xırda mülk məmləkətində, feodalizm dövrünə əlvida deyərək geniş bir sənaye və ticarət dövrünə daha girməkdə olan bu yerlərdə ən qüvvətli partiya milli-demokrat məsləki yolunu tutan partiyadır. Bu partiyanın adı “Müsavat” olmaya bilər, fəqət müsavatçı olması zəruridir”***



### Rəsulzadənin nəzərində müsavatçılıq, cümhuriyyətçilik və azərbaycançılıq

Məhəmmədəmin Rəsulzadənin respublikaçılıq görüşünün əsasında müsavatçılıq adı verdiyi düşüncə sistemi dayanır. Kəlmə mənası “bərabərlik” olan Müsavat Rəsulzadənin ideologiyasına uyğun olaraq partiyasına seçdiyi addır. Rəsulzadə özü müsavatçılığın tərifini bu şəkildə verib: “Müsavatçılıq hürriyyət, mülkiyyət və ictimai təsanüd prinsipləri ilə milli demokratiya və cümhuriyyət əsasına söykənən milli istiqlal mübarizəsi deməkdir”.

1920-ci ildə verdiyi konfransda Rəsulzadə Azərbaycanın sosial vəziyyətinə müvafiq ideologiyanı bu şəkildə açıqlayıb:

“Azərbaycan xırda mülkiyyət məmləkətidir. Ona görə də bura xalqı mülkiyyət əsasını inkar edən ictimai cərəyanlar arxasından gedə bilməz. İslam millətlərini bir camaat və ümmət təsəvvür edən vəmilliyyəti inkar edən islam birliyi cərəyanı da burada özünə yer tapa bilməz, çünki bu fikir Azərbaycanüçün çox köhnəlmiş bir fikirdir. Burada nə imperialist bir cərəyan var, nə də bir din təəssübü ki... Burada, bu iqtisadiyyatı yeni inkişaf edən xırda mülk məmləkətində, feodalizm dövrünə əlvida deyərək geniş bir sənaye və ticarət dövrünə daha girməkdə olan bu yerlərdə ən qüvvətli partiya milli-demokrat məsləki yolunu tutan partiyadır. Bu partiyanın adı “Müsavat” olmaya bilər, fəqət müsavatçı olması zəruridir”.

***1936-cı ildə Varşavada baş tutan Müsavat partiyasının qurultayında Rəsulzadə dəyişən şəraiti nəzərə alıb partiyanın yeni proqramını qəbul edib. Yeni nizamnamədə müsavatçılığın tərifi bu şəkildə verilib: “Müsavatçılıq böyük türk mədəniyyətinə bağlı, milli, mədəni və insani dəyərləri mənimsəyən, hürriyyət, cümhuriyyət və istiqlal idealına sadiq Azərbaycan vətənsevərliyidir. Müsavatçılıq milli birlik və təsanüdü əsas olaraq götürür və hər cür sinif və zümrə hakimiyyətini rədd edir”...***

(ardı gələn sayımızda)